# SAMƏT ƏLİZADƏ – 80



Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor S.Q.Əlizadə 1938-ci ildə Xızıda anadan olmuşdur. 1955-ci ildə orta məktəbi, 1960-cı ildə BDU-nun Filologiya fakültəsini bitirmişdir. 1962-ci ildə dil tarixi ixtisası üzrə ADU-nun (indiki BDU) aspiranturasına daxil olmuş, 1965-ci ildə aspiranturanı bitirmişdir. 1966-cı ildə "Şühədanamə"də adlar (isim, sifət, say və əvəzlik)" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1965-ci ildə universitetin Filologiya fakültəsində müəllimliyə başlamış, daha sonra baş müəllim, dosent vəzifələrində çalışmışdır.

1992-ci ildə "XVI əsr Azərbaycan ədəbi dili" mövzusunda doktorluq dissertasiyası müdafiə edib filologiya elmləri doktoru elmi dərəcəsi almışdır. 1993-cü ildən Türkologiya kafedrasında professor olmuşdur. Azərbaycan Dövlət Universitetindəki elmi-pedaqoji fəaliyyəti ərzində 6 tədris proqramı tərtib etmiş, 3 dərs vəsaiti, 1 dərslik yazmış, 7 namizədlik, doktorluq dissertasiyasının müdafiəsində rəsmi opponent olmuşdur.

S.Q.Əlizadə 13 kitabın, 200-dək elmi və elmi-publisistik məqalənin müəllifi, ümumi həcmi 300 çap vərəqi olan 20-dən artıq kitabın elmi ixtisas redaktoru olmuşdur. S.Q.Əlizadənin tədqiqat əsərləri Azərbaycan tarixi filologiyasının müxtəlif sahələrinin – tarixi qrammatika, etimologiya, mətnşünaslıq, poetika və ədəbi dil tarixinin fundamental nəzəri və təcrübi məsələlərinin həllinə həsr olunmuşdur. Onun "XVI əsr Azərbaycan ədəbi dili", "Klassik Azərbaycan şairləri söz haqqında" (həmmüəllifli), "Azərbaycan ədəbi dili tarixindən praktikum", "Orta əsrlərdə Azərbaycan yazı dili", "Əski Azərbaycan yazısı", "Şah beytlər" və b. kitabları bu qəbildəndir. Azərbaycan filologiyasında Həsənoğlunun türkcə üçüncü şeiri, "Əhməd Hərami dastanı" və "Şeyx Səfi təzkirəsi" ilə bağlı ilk bitkin bilgi verilməsi, türkologiya üçün böyük önəmi olan folklor və dil abidəsi olan "Oğuznamə" nin əlyazmasının üzə çıxarılıb ictimaiyyətə çatdırılması, eləcə də çapa hazırlanıb nəşr olunması S.Əlizadənin dəyərli işlərindəndir. Bu kitabla bağlı Azərbaycan, İran, Türkiyə və İraqda 12 müsbət rəy dərc edilmiş, əsər 1992-ci ildə İstanbulda yenidən nəşr olunmuşdur.

S.Q.Əlizadənin qədim türk yazılı abidələrinin elmi-izahlı mətnlərinin tərtibində, çapa hazırlanmasında, habelə Nəsimi, Xətai, Füzuli kimi böyük sənətkarların dilinin tədqiq edilməsində xüsusi xidmətləri vardır. O, 20 il "Füzuli poeziya günləri"nin fəal aparıcılarından olmuşdur. 1994-cü ildə Tehran-Məşhəd İlahiyyat konfransının və Füzulinin 500 illiyinə aid Dövlət Yubiley Komissiyasının üzvü kimi Bağdad, Kərbəla və Təbrizdə keçirilmiş elmi-mədəni tədbirlərin iştirakçısı olmuş, Moskva, Sankt-Peterburq, Düşənbə, Ufa və Bakıdakı simpozium və konfranslarda, 1990-cı ildə Türkiyənin Kayseri şəhərində keçirilmiş Millətlərarası Böyük Azərbaycan Konqresində məruzələrlə çıxış etmişdir.

O, bir neçə elmi şura və cəmiyyətin, Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Respublikası Prezidenti yanında AAK Ekspert Şurasının üzvü olmuşdur.

2000-ci ildə "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illiyi münasibətilə Dövlət Komissiyasına üzv seçilmiş; "Kitabi-Dədə Qorqud" dastanlarının tənqidi mətnini və "Kitabi-Dədə Qorqud" Ensiklopediyasının I cildini nəşrə hazırlamış və çap etdirmişdir. 1999-cu ildə Əməkdar Elm Xadimi fəxri adına layiq görülmüşdür. 2001-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında Dil Komissiyasının üzvü seçilmişdir.

Əməkdar Elm Xadimi, filologiya elmləri doktoru, professor S.Q.Əlizadə 2002-ci ildə Bakıda vəfat etmişdir.

**Əsərləri:** "XVI əsr Azərbaycan yazı dili" (1966), "Klassik Azərbaycan şairləri söz haqqında" (Y.Seyidovla,1977), "Azərbaycan ədəbi dili tarixindən praktikum" (1983), "Orta əsrlərdə Azərbaycan yazı dili" (1985), "Oğuznamə" (tərtib, müqəddimə, qeydlər və lüğət) (1987), "Kitabi-Dədə Qorqud" (F.Zeynalovla) (1988), "Oğuzname" (İstanbul,1992), "Əski Azərbaycan yazısı" (1993), "Şah beytlər" (Füzuli "Divan"ına şərhlər, 1995), "Kitabi-Dədə Qorqud" (tərtib, müqəddimə, lüğət, faksimile, sadələşdirilmiş variant, 1999), "Kitabi-Dədə Qorqud" Ensiklopediyası (elmi-tənidi mətn, müqəddimə), I cild, (2000), "Elm hərfdən başlanır" (məqalələr toplusu) (2002), "Azərbaycan ədəbi dili taixi" (həmmüəllifli, 4 clddə), I cild, (2007).

*Sənubər Abdullayeva*